atəşgahsığorta

HƏYAT SIĞORTASI

# "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanunundan əsas məqamlar

1. İcbari sığorta müqaviləsi yalnız həyat sığortası üçün lisenziyayası olan və bu qanunla əhatə olunan icbari sığorta növü üzrə fəaliyyətin həyata keçirilməsinə sığorta nəzarəti orqanının verdiyi icazəyə malik olan sığortaçı tərəfindən bağlanıla bilər.

2. Bu icbari sığorta növü – bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində sığorta olunanların həyatına və sağlamlığına dəyən zərər nəticəsində onların peşə əmək qabiliyyətinin itirilməsi və ya ölümü ilə bağlı sığorta ödənişinin verilməsini nəzərdə tutan sığorta sinfidir.

3. Sığortalı sığortaçını seçməkdə sərbəstdir. Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, sığortaçı icbari sığorta müqaviləsini bağlamaqdan imtina edə bilməz.

4. İcbari sığorta müqaviləsi sığortalının yazılı müraciəti əsasında yazılı formada bağlanılır. (İcbari sığorta müqaviləsinin məzmunu və forması AR Maliyyə Nazirliyi tərəfindən müəyyən edilir)

5. İcbari sığorta müqaviləsi sığorta olunanın və ya faydalanan şəxsin vəziyyətini qanunvericiliklə müəyyən olunmuş şərtlərlə müqayisədə pisləşdirirsə, sığortaçı sığorta olunan və ya faydalanan şəxs qarşısında bu Qanunla müəyyən olunmuş sığorta təminatı həcmində öhdəlik daşıyır.

6. Bu Qanunla sığorta etdirmək vəzifəsi daşıyan sığortalı həmin vəzifəni yerinə yetirmədikdə və ya icbari sığorta müqaviləsini qanunvericiliklə nəzərdə tutulmuş şərtlərlə müqayisədə sığorta olunanın vəziyyətini pisləşdirən şərtlərlə bağladıqda, sığorta hadisəsinin baş verdiyi halda bu Qanuna uyğun olaraq xeyrinə sığorta müqaviləsi bağlanmalı şəxslər qarşısında azı bu Qanunla müəyyən edilmiş sığorta təminatı həcmində öhdəlik daşıyır.

7. İcbari sığorta müqaviləsi müddətsiz bağlanılır, sığorta tarifləri isə hər təqvim ili üçün müəyyən olunur. Növbəti təqvim ili üçün sığorta tarifləri cari ilin dekabr ayının 1-dək müəyyən olunmalıdır.

8. Müqavilə ili - İcbari sığorta müqaviləsinin qüvvədə olduğu birinci il və həmin müqavilənin qüvvədə olduğu bütün dövr ərzində tamam olan hər növbəti il.

9. Müqavilə ilinin sonuna azı 30 gün qalmış icbari sığorta müqaviləsinə xitam verilməsi barədə sığortaçının xəbərdar edilməsi şərti ilə sığortalının təşəbbüsü əsasında müqavilə dayandırıla bilər.

10. Sığorta haqqı sığortalı tərəfindən sığortaçıya müqavilə ilinin əvvəlində icbari sığorta müqaviləsində nəzərdə tutulmuş qaydada hissə-hissə və ya birdəfəlik ödənilir.

11. Bu Qanuna uyğun olaraq faydalanan şəxslərə aşağıdakı sığorta ödənişləri verilə bilər:

- Aylıq sığorta ödənişi -

- Birdəfəlik sığorta ödənişi;

- Əlavə sığorta ödənişi.

Aylıq sığorta ödənişi sığorta hadisəsi baş verdikdə sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi ilə bağlı itirilmiş aylıq əmək haqqı əvəzində faydalanan şəxsə verilən pul təzminatıdır.

Birdəfəlik sığorta ödənişi bu Qanunla müəyyən olunmuş qaydada aylıq sığorta ödənişi məbləğlərinin cəm halda birdəfəlik ödənilməsidir. Birdəfəlik sığorta ödənişi aşağıdakı hallarda verilir:

- sığorta hadisəsi nəticəsində zərər çəkmiş sığorta olunana əlillik növbəti müayinə müddəti göstərilmədən təyin edildikdə;

- sığorta hadisəsi nəticəsində sığorta olunanın öldüyü halda.

Əlavə sığorta ödənişi sığorta hadisəsi nəticəsində zərər çəkmiş sığorta olunana müalicəyə, əlavə qidalanmaya, dərman alınmasına, protezləşdirməyə, başqasının qulluğuna, sanatoriya-kurort müalicəsinə, xüsusi nəqliyyat vasitələri əldə edilməsinə, başqa peşəyə hazırlanmaya çəkdiyi xərclərinin əvəzinin ödənilməsinə görə verilən pul təzminatıdır.

Əlavə sığorta ödənişi sığorta hadisəsi nəticəsində zərər çəkmiş sığorta olunanın həmin ödənişə aid yardım və qulluq növlərinə möhtac olduğu və bunları pulsuz almaq hüququnun qanunvericilikdə nəzərdə tutulmadığı halda verilir.

12. Sığortaçı öz müstəqil qərarına əsasən bu Qanunla müəyyən olunmuş sığorta məbləğlərinə üstəlik sığorta ödənişi ödəyə bilər.

13. <u>Annuitet müqaviləsi</u> - qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq icazə almış sığortaçı və faydalanan şəxs arasında bağlanılan, həmin faydalanan şəxsin xeyrinə dövri sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan sığorta müqaviləsi.

Annuitet müqaviləsinin məzmunu və forması, onun bağlanılması, dəyişdirilməsi və ona xitam verilməsi qaydaları AR Maliyyə Nazirliyi tərəfindən müəyyən edilir.

14. Sığortaçıların icbari sığorta üzrə fəaliyyətinə dövlət nəzarəti Azərbaycan Respublikasının sığorta qanunvericiliyinə uyğun olaraq sığorta nəzarəti orqanı tərəfindən həyata keçirilir.

15. Sığortalılar tərəfindən bədbəxt hadisələrin və peşə xəstəliklərinin azaldılması üzrə qabaqlayıcı tədbirlərin görülməsi və əməyin mühafizəsi üzrə vəzifələrin yerinə yetirilməsi üzərində qanunvericiliyə uyğun olaraq AR Əmək və əhalinin sosial müdafiəsi nazirliyi həyata keçirir.

16. Peşə riskinin dərəcəsindən və sığorta olunanların kateqoriyalarından asılı olaraq fərqləndirilən sığorta tarifləri 0,2 - 2 faiz arasında müəyyən olunmuşdur. (Sığorta məbləği AR Maliyyə Nazirliyi tərəfindən müəyyən edilir.)

17. Sığorta olunanlar yerinə yetirilən əmək funksiyalarının xarakterinə görə aşağıdakı kateqoriyalara bölünür:
   a. Fəhlə heyəti – məhsulun (əmtəənin) istehsalı, xidmətin həyata keçirilməsi ilə, həmçinin təmir, yüklərin daşınması, təmizlik, saxlama, mühafizə və digər bu kimi işlərlə birbaşa məşğul olan heyət;

   b. Qulluqçu heyəti –müvafiq olaraq aşağıdakıları əhatə edən rəhbərlik, mütəxəssis və texniki icraçılara aid işlərin və ya xidmətlərin yerinə yetirilməsi ilə məşğul olan heyət:
      - *rəhbərlik* – təşkilatın və ya onun hər hansı struktur bölməsinin rəhbəri və onun müavinləri;
      - *mütəxəssis* – mühəndis-texniki, iqtisadi, hüquqi, sosioloji və digər bu kimi funksiyaları yerinə yetirən işçilər;
      - *texniki icraçılar* – sənədlərin hazırlanmasını və rəsmiləşdirilməsini həyata keçirən kargüzarlar, katibələr, tabelçilər, surətçıxaranlar, arxiv işçiləri, agentlər və digər bu kimi işçilər.

18. İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta tarifləri peşə riskinin dərəcəsindən və sığorta olunanların kateqoriyalarından asılı olaraq fərqləndirilməklə aşağıdakı kimi müəyyən edilsin:

| **Peşə riskinin sinfi** | **Sığorta olunanların kateqoriyaları üzrə sığorta tarifi *(%-lə)*** | |
|---|---|---|
| | ***Qulluqçu heyəti üzrə*** | ***Fəhlə heyəti üzrə*** |
| 1 | 0,2 | 0,4 |
| 2 | 0,2 | 0,5 |
| 3 | 0,2 | 0,6 |
| 4 | 0,2 | 0,8 |
| 5 | 0,2 | 0,9 |
| 6 | 0,3 | 1,0 |
| 7 | 0,3 | 1,2 |
| 8 | 0,3 | 1,4 |
| 9 | 0,4 | 1,5 |
| 10 | 0,4 | 1,6 |
| 11 | 0,4 | 1,7 |
| 12 | 0,5 | 1,8 |
| 13 | 0,5 | 1,9 |
| 14 | 0,5 | 2,0 |

19. İcbari sığorta tariflərinin müəyyən edilməsi məqsədilə peşə riskinin dərəcələrindən asılı olaraq, peşə riskinin sinifləri Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən təsdiq edilmiş İqtisadi fəaliyyət növləri təsnifatının 3-cü versiyasına Əlavədə nəzərdə tutulan iqtisadi fəaliyyət növləri üzrə aşağıdakı kimi müəyyən edilmişdir:

| İqtisadi fəaliyyət növü |
|---|
| **1-ci risk sinfi** |
| Yaşayış üçün yerlər tərəfindən xidmətlərin göstərilməsi |
| Proqram təminatının işlənməsi, bu sahədə məsləhətlər və bununla əlaqədar fəaliyyət |
| İnformasiya xidmətləri fəaliyyəti |
| Maliyyə fəaliyyəti (sığorta və pensiya təminatı üzrə xidmətlərdən başqa) |
| Sığorta, təkrarsığorta və pensiya təminatı |
| Hüquq və mühasibat uçotu sahəsində fəaliyyət |
| Mərkəzi ofislərin fəaliyyəti və idarəetmə sahəsində fəaliyyət |
| İctimai və humanitar elmlər sahəsində tədqiqatlar və işləmələr |
| Reklam fəaliyyəti və bazarın öyrənilməsi |
| Məşğulluq sahəsində fəaliyyət |
| Səyahət agentliklərinin və turoperatorların əvvəlcədən sifariş etmə xidməti və bununla əlaqədar fəaliyyət |
| Mənzərələrin dəyişdirilməsi üzrə xidmətlərin göstərilməsi |
| Dövlət idarəetməsi və müdafiə; icbari sosial təminat |
| İctimai birliklərin (təşkilatların) fəaliyyəti |
| Toxunulmazlıq hüququ olan təşkilatların fəaliyyəti |
| **2-ci risk sinfi** |
| Avtomobillərin satışı |
| Avtomobillər üçün hissələrin, qovşaqların və ləvazimatların satışı |
| Avtomobil və motosikletlərin satışından başqa, topdan satış |
| Avtomobil və motosikletlərin satışından başqa pərakəndə satış |
| Poçt və kuryer fəaliyyəti |
| İçki və yeməklərin satışı ilə əlaqədar xidmətlərin göstərilməsi |
| Kinofilmlərin, video və televiziya proqramlarının istehsalı, səsyazma və musiqi nəşrləri ilə əlaqədar fəaliyyət |
| Proqramların tərtib edilməsi, radio və televerilişlərin translyasiya edilməsi ilə əlaqədar fəaliyyət |
| Məlumat texnologiyaları və hesablama texnikası sahəsində sair fəaliyyət |
| Maliyyə xidmətləri və sığorta sahəsində yardımçı fəaliyyət |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar |
| Memarlıq, mühəndis axtarışları və bu sahələrdə texniki məsləhətlərin verilməsi |
| Təbii və texniki elmlər sahəsində tədqiqatlar və işləmələr |
| Digər peşəkar, elmi və texniki fəaliyyət |
| Kirayə və lizinq fəaliyyəti |
| Təmizlik işləri üzrə fəaliyyət |
| Biznesin mühafizəsinə yönəldilmiş inzibati və sair əlavə fəaliyyət |

| |
|---|
| Təhsil |
| Səhiyyə sahəsində fəaliyyət |
| Sosial xidmətlərin göstərilməsi |
| Yaşayışla təminatsız sosial xidmətlərin göstərilməsi |
| İncəsənət sahəsində sair fəaliyyətin göstərilməsi və mədəni-kütləvi əyləncəli tədbirlərin həyata keçirilməsi |
| Kitabxana, arxiv, muzeylərin və digər mədəniyyət müəssisələrinin fəaliyyəti |
| Qumar oyunlarının təşkili və mərc çəkmək üzrə fəaliyyət |
| İstirahət və əyləncələrin təşkili üzrə fəaliyyət |
| Sair fərdi xidmətlərin göstərilməsi |
| **3-cü risk sinfi** |
| Birillik bitkilərin becərilməsi |
| Çoxillik bitkilərin becərilməsi |
| Bitkilərin çoxaldılması (əkilməsi) |
| Heyvandarlıqla əlaqəli bitkiçilik |
| Geyim istehsalı |
| Poliqrafiya fəaliyyəti və yazılmış məlumatların daşıyıcılara çoxaldılması |
| Oyun və oyuncaqların istehsalı |
| Nəşriyyat fəaliyyəti |
| Baytarlıq fəaliyyəti |
| **4-cü risk sinfi** |
| Heyvandarlıq |
| Kənd təsərrüfatı sahəsində xidmət göstərilməsi |
| Balıqyetişdirmə |
| Süd məhsullarının istehsalı |
| Sabun və yuyucu tozların, təmizləyici və cilalayıcı vasitələrin, ətriyyat və kosmetika vasitələrinin istehsalı |
| Əczaçılıq məhsullarının istehsalı |
| Motosikletlərin, onların hissələrinin, qovşaqlarının və ləvazimatlarının satışı, motosikletlərə texniki xidmət və təmiri |
| Yardımçı-texniki xidmətlərin fəaliyyəti |
| Muzdlu işçilərlə şəxsi ev təsərrüfatlarının fəaliyyəti |
| **5-ci risk sinfi** |
| Ovçuluq və vəhşi heyvanların yetişdirilməsi və bu sahələrdə xidmətin göstərilməsi |
| Ət məhsullarının istehsalı (emalı) |
| Dəyirman-ding sənayesi məhsullarının nişasta və nişasta məhsullarının istehsalı |
| Un və un məmulatlarının istehsalı |
| Heyvanlar üçün hazır yemlərin istehsalı |
| İçki istehsalı |
| Toxuculuq sənayesi |
| İstintaqın aparılması və təhlükəsizliyin təminatı |
| Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı |
| |
| İdman sahəsində fəaliyyət |

| |
|---|
| **6-cı risk sinfi** |
| Sair qida məhsullarının istehsali |
| Kompüter, elektron və optik məhsulların istehsalı |
| Zərgərlik məmulatların və süni daş-qaşların istehsalı |
| Musiqi alətlərinin istehsalı |
| İdman mallarının istehsalı |
| Digər qruplara daxil edilməyən müxtəlif məhsulların istehsalı |
| Bəzək və tamamlayıcı işlər |
| Anbar təsərrüfatı və yardımçı nəqliyyat fəaliyyəti |
| Kompüterlərin, şəxsi istifadə əşyalarının, məişət mallarının təmiri |
| **7-ci risk sinfi** |
| Meyvə və tərəvəzlərin emalı və konservləşdirilməsi |
| Bitki və heyvan yağları və piylərinin istehsalı |
| Tütün məmulatlarının istehsalı |
| Kağız və karton istehsalı |
| Şüşə və şüşədən məmulatların istehsalı |
| Odadavamlı məmulatların istehsalı |
| Gildən sair tikinti məmulatlarının istehsalı |
| Sair çini və saxsı məmulatların istehsalı |
| Metalların emalı və metallara örtük çəkilməsi, maşınqayırmanın əsas texnoloji prosesləri |
| Bıçaq məmulatlarının, alətlərin və dəmir məmulatlarının istehsalı |
| Tullantıların yığılması, emalı və məhv edilməsi; istehsalat tullantılarından təkrar istifadə edilməsi |
| Boru kəməri nəqliyyatının fəaliyyəti |
| Texniki sınaq və nəzarət |
| **8-ci risk sinfi** |
| Rezin və plastmas məmulatların istehsalı |
| Gəmiqayırma |
| Hazır metal məmulatlarının, maşın və avadanlıqların təmiri |
| Şəhərlərarası dəmir yolu xətti ilə sərnişin daşınması |
| Dəmir yolu vasitəsi ilə yük daşınması |
| Su nəqliyyatının fəaliyyəti |
| Hava nəqliyyatının fəaliyyəti |
| Rabitə |
| **9-cu risk sinfi** |
| Mebeldən başqa ağacın emalı və ağacdan məmulatların və tıxacın istehsalı; hopdurma və hörmə materialların istehsalı |
| Silah və hərbi sursat istehsalı |
| Dəzgahların istehsalı |
| Mebellərin istehsalı |
| Tibbi və stomatologiya təcrübəsində tətbiq olunan alətlərin istehsalı |
| Digər tullantıların yığılması və məhv edilməsi |
| Sair quru yol nəqliyyatının fəaliyyəti |
| Yük avtomobil nəqliyyatlarının fəaliyyəti |

atəşgahsığorta
HƏYAT SIĞORTASI

| |
|---|
| **10-cu risk sinfi** |
| Boya və lakların istehsalı |
| Sair kimyəvi məhsulların istehsalı |
| Süni və sintetik kimyəvi liflərin istehsalı |
| Metalın döyülməsi, preslənməsi, ştamplanması və profillənməsi, toz metallurgiyası |
| Elektrik naqillərinin və elektrik şəbəkələri üçün cihazların istehsalı |
| Elektrik lampaları və işiqlandırıcı avadanlıqların istehsalı |
| Məişət cihazlarının istehsalı |
| **11-ci risk sinfi** |
| Balıq, xərçəngkimilər və molyuskaların emalı və konservləşdirilməsi |
| Abraziv məmulatların və sair qeyri-metal mineral məhsulların istehsalı |
| Sair hazır metal məmulatlarının istehsalı |
| Ümumi təyinatlı sair maşınların istehsalı |
| **12-ci risk sinfi** |
| Balıqçılıq |
| Çuqun, polad və ferroərinti istehsalı |
| Poladdan boru, içi boş profillər və birləşdirici hissələrin istehsalı |
| Elektrik mühərriklərinin, generatorlarının, transformatorların və elektrik paylayıcı və tənzimləyici cihazlarının istehsalı |
| Sair elektrik avadanlıqlarının istehsalı |
| Ümumi təyinatlı avadanlıqların istehsalı |
| Kənd və meşə təsərrüfatı üçün maşın və avadanlıqların istehsalı |
| Avtomobil, qoşqu və yarımqoşquların istehsalı |
| Dəmir yolu nəqliyyatı vasitələrinin istehsalı |
| Hərbi avtomobillərin istehsalı |
| Digər qruplara daxil edilməyən nəqliyyat vasitələri və avadanlıqlarının istehsalı |
| Avtomobillərə texniki xidmət göstərilməsi və onların təmiri |
| **13-cü risk sinfi** |
| Meşə təsərrüfatı və bu sahədə xidmətin göstərilməsi |
| Koks və təmizlənmiş neft məhsullarının istehsalı |
| Əsas kimyəvi maddələrin, gübrə və azot birləşmələrinin, ilkin formalarda plastik kütlə və sintetik kauçukun istehsalı |
| Sement, əhəng və gips istehsalı |
| Əlvan metalların istehsalı |
| Metal tökmə |
| Xüsusi təyinatli sair maşin və avadanlıqların istehsalı |
| Sənaye maşın və avadanlıqlarının quraşdırılması |
| Elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat |
| Suyun yığılması, təmizlənməsi və paylanması |
| Çirkli suların yığılması və emalı |
| Binaların sökülməsi və tikinti sahəsinin hazırlanması |
| Elektrik və su kəməri sistemlərinin və sair mühəndis avadanlıqlarının quraşdırılması |
| İxtisaslaşdırılmış tikinti işləri |

| **14-cü risk sinfi** |
| --- |
| Daş kömür və liqnit hasilatı |
| Xam neft və təbii qaz hasilatı |
| Metal filizlərinin hasilatı |
| Mədənçıxarma sənayesinin digər sahələri |
| Mədənçıxarma sənayesi sahəsinə xidmətlərin göstərilməsi |
| Aqrokimyəvi məhsulların istehsalı |
| Beton, gips və sementdən məmulatların istehsalı |
| Dekorativ və tikinti daşlarının kəsilməsi, emalı və naxışlanması |
| Çuqun və poladın sair ilkin emalı |
| Metaldan tikinti konstruksiyaları və məmulatlarının istehsalı |
| Metal sisternlərin, radiatorların və çənlərin istehsalı |
| Batareyaların və akkumulyatorların istehsalı |
| Kosmik aparatlar da daxil olmaqla uçan aparatların istehsalı |
| Binaların tikintisi |
| Mülkü təyinatlı inşaat işləri |